

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 25 (23.912)

*8 fevral 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikanın daxili işlər orqanlarının fəaliyyəti barədə müşavirə keçirilib






Fevralın 7-də Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının fəaliyyəti və qarşıda duran vəzifələr barədə müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə iştirak etmişdir.

Müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərman və Sərəncamı diqqətə çatdırılmışdır. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 7 fevral tarixli Fərmanına əsasən Rəşad Rafiq oğlu İsmayılov Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, həmin tarixli Sərəncamına əsasən isə Zahid Əjdər oğlu Gözəlov Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin müavini təyin edilmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov muxtar respublikanın daxili işlər orqanlarında yol verilmiş nöqsanlar barədə çıxış etmişdir.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, polis polkovniki Rəşad İsmayılov muxtar respublikanın daxili işlər orqanlarının yeni ştat strukturu barədə çıxış etmiş, yol verilmiş nöqsanları aradan qaldıracaqlarına söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Muxtar respublikada daxili işlər orqanlarının fəaliyyəti üçün hər cür şərait yaradılmış, müasir və inkişaf etmiş ölkələr ilə müqayisə olunacaq səviyyəyə çatdırılmışdır. Bu gün muxtar respublika yalnız dinamik iqtisadi inkişaf tempinə görə deyil, həm də mövcud sabitlik və əmin-amanlığa görə də fərqlənir. Həyata keçirilən profilaktik tədbirlərin nəticəsidir ki, cinayətkarlığın dinamikasında da aşağı tendensiya müşahidə olunur. Qanunsuz saxlanılan silahların yığılması hesabınadır ki, onun tətbiqi ilə törədilən cinayətlərə rast gəlinmir. İl ərzində qeydə alınan hüquqazidd əməllərin əksəriyyətini bilavasitə kriminogen durumun gərginləşməsinə təsiri olmayan və bir çox hallarda ehtiyatsızlıqdan baş verən cinayətlər təşkil edir. Əhalinin hər 100 min nəfərinə nisbətdə baş verən cinayət hadisələrinin sayı orta göstəricidən dəfələrlə azdır. Lakin yaradılan şərait və göstərilən dövlət qayğısı düzgün qiymətləndirilməmiş, ciddi nöqsanlara yol verilmişdir. Buna görə də ictimai təhlükəsizliyi və ictimai qaydanı təmin edən əsas orqan kimi Daxili İşlər Nazirliyinin fəaliyyəti yenidən qurulmalıdır.

Ali Məclisin Sədri tapşırmışdır ki, nazirliyin yeni ştat strukturuna uyğun fəaliyyət tənzimlənməli, nöqsanların aradan qaldırılması üçün islahatlar davam etdirilməlidir. Polisin əsas vəzifəsi ictimai təhlükəsizliyi və sabitliyi, insanların həyatını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqazidd əməllərdən qorumaqdan ibarətdir. Bu vəzifələri həyata keçirərkən polis qətiyyətli, qorxmaz olmalı, səlahiyyət həddini aşmamalı, verilmiş səlahiyyətlərdən yalnız qanun çərçivəsində istifadə etməlidir. Yeni ştat strukturunda da əsas diqqət yerlərdə polis sahə müvəkkillərinin fəaliyyətinin gücləndirilməsinə yönəlmişdir. Nazirlik sahə müvəkkillərinin fəaliyyətinin qurulmasına diqqəti artırmalı, onların xidməti stimullaşdırılmalı, iş rejimi yaxşılaşdırılmalıdır.

Ali Məclisin Sədri demişdir: Polis sahə inspektorları təhkim olunan inzibati sahənin sərhədlərini, ərazisini, xüsusiyyətlərini, əhalinin sayını və əsas məşğulluğunu, yerli adət-ənənələrini, ərazidə baş vermiş, açılmış və bağlı cinayətlərin sayını, növünü, onun törədilməsinə səbəb olmuş amilləri, qeydiyyatda olan cinayət törətməyə meyilli şəxsləri və onlar haqqında məlumatları bilməlidir. Sahə inspektorunun ən mühüm işi inzibati sahənin pasportunu tərtib etməkdir. Pasport xidmətin düzgün qurulmasına və sahə inspektorları dəyişdirilərkən xidmətin ardıcıllığının təmin olunmasına, asan idarəçiliyə imkan yaradır. Nəzərə alınmalıdır ki, inzibati sahənin pasportu ciddi xidməti sənəddir. Nazirliyin ictimai təhlükəsizlik idarəsi və yerli polis orqanlarının rəhbərləri polis sahə inspektorlarının fəaliyyətini ciddi nəzarətdə saxlamalı, verilən tapşırıqların icrasını təmin etməlidirlər. Sahə inspektorlarının fəaliyyətinin nəticələri hər ay ümumiləşməli, müzakirə olunmalı, nöqsanlar müəyyən edilməli, müvafiq istiqamətlər verilməlidir. Profilaktika işi polisin əsas vəzifələrindəndir. Profilaktik işin ən effektli yollarından biri isə polisin əhali ilə sıx təmas qurması, cəmiyyətin içində olması, ehtiyacı olanlara yardım göstərməsi və maarifləndirməsidir. Bununla da qeyri-peşəkar şəraitdə baş verən hüquqpozmaların açılmasında vətəndaşların rolu artırıla bilər. İctimai asayişin təmin edilməsinin əsas şərtlərindən biri də hüquq pozuntusu törətməyə meyilli şəxslərin qeydiyyata alınması və onlarla profilaktik işin təşkilidir. Penitensiar müəssisələrdən azad edilmiş, islah işi, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslər, ailə-məişət zəminində mütəmadi münaqişə törədən şəxslər, səhiyyə orqanlarında qeydiyyatda olan narkotik istifadəçiləri, ruhi xəstələr sahə inspektorlarının pasportunda qeydiyyata götürülməklə vaxtında lazımi profilaktik tədbirlər aparılmalıdır. Sahə inspektorları inanılmış şəxslərlə işin qurulmasına da diqqətlə yanaşmalı, bu zaman məxfiliyə riayət etməli, müvafiq sənədləşmələr diqqətlə aparılmalıdır.

Bildirilmişdir ki, yol hərəkəti və onun təhlükəsizliyinin təmin edilməsi nazirliyin fəaliyyətinin əsas hissələrindən biridir. Naxçıvan şəhərində "Təhlükəsiz şəhər" avtomatlaşdırılmış idarəetmə sisteminin və magistral yollarda videonəzarət kameralarının quraşdırılması nəqliyyatın təhlükəsiz və rahat hərəkətinin təşkil olunmasında, hadisələrin operativ və obyektiv araşdırılmasında, yol hərəkəti qaydalarını pozmuş şəxslərin aşkarlanmasında mühüm rol oynayır. Nazirliyin aid qurumu yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün ciddi təhlillər aparıb təkliflər verməli, bu sahədə aidiyyəti orqanlarla əlaqəli işləməli, hərəkəti nizamlayan texniki və elektron vasitələrin quraşdırılması, dəyişdirilməsi, ləğv edilməsi, təkmilləşdirilməsi üçün təşəbbüskarlığını artırmalıdır. Muxtar respublikada nəqliyyat sıxlığının artmasını nəzərə alaraq kütləvi informasiya vasitələrində yol hərəkəti qaydalarının təbliği, maarifləndirmə işi gücləndirilməlidir. Nəqliyyat vasitələrində qanunsuz, konstruksiyada nəzərdə tutulmayan vasitələrin quraşdırılmasının qarşısı qətiyyətlə alınmalıdır.

Ali Məclisin Sədri demişdir: Daxili işlər orqanlarının əsas vəzifələrindən biri də insanların əmlakının, dövlət idarələri və obyektlərinin mühafizəsini təşkil etməkdir. Mühafizə polisi də işini qanunvericiliyin tələblərinə uyğun qurmalıdır. Muxtar respublikada əməliyyat-axtarış işinin, narkotiklərlə mübarizənin, mütəşəkkil dəstələr və cinayətkar birliklər tərəfindən törədilən cinayətlərin qarşısının alınması, dini ekstremizmlə mübarizə funksiyalarının həyata keçirilməsi nazirliyin cinayət axtarış qurumlarının üzərinə qoyulmuşdur. Cinayət axtarış şöbəsinin statusunun artırılaraq idarəyə çevrilməsi və əvvəllər ayrılıqda fəaliyyət göstərən narkotiklərlə mübarizə və mütəşəkkil cinayətkarlıqla mübarizə şöbələrinin bu idarəyə birləşdirilməsi yeni vəzifələr müəyyən etməklə bu xidmətin daha operativ işləməsini zəruri etmişdir. Cinayət törətmiş şəxslərin dərhal müəyyən olunması, əməliyyat fəaliyyətinin düzgün təşkil olunması, axtarışa verilmiş şəxslərin tutulması işi daha peşəkar qurulmalı, baş verə biləcək cinayətlərin qarşısının alınması və açılması üçün nazirliyin bütün qurumları birgə işləməlidirlər. Narkotiklərlə bağlı hüquqpozmaların qarşısının alınması və tutulan narkotik vasitələrin saxlanılmasında yol verilən nöqsanlar bir daha təkrarlanmamalı, narkotik vasitələr saxlanc üçün Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə təhvil verilməlidir. Nazirliyin müvafiq qurumları kriminogen durumun təhlili əsasında cinayətkarlığın dinamikası və strukturunda baş verən dəyişiklikləri qiymətləndirməli, əməliyyat şəraitinə operativ müdaxilə edilməlidir. Müasir dövrün təhlükəli əməlləri olan kibercinayətkarlıq, adam oğurluğu, hədə-qorxu ilə tələb etmə, insan alveri, dini ekstremizm kimi cinayətlərin qarşısını almaq, bu sahədə digər hüquq-mühafizə və xüsusi xidmət orqanları ilə birgə əməliyyat-axtarış tədbirlərini həyata keçirmək və məlumat mübadiləsi aparmaq ən mühüm vəzifələrdən olmalıdır.

Ali Məclisin Sədri demişdir: Əməliyyat-axtarış fəaliyyətinin əsas iştirakçılarından olan nazirliyin Xüsusi Əməliyyat-Axtarış Tədbirləri Şöbəsinin işi də gücləndirilməlidir. Bu qurum üçün hər cür şərait yaradılmasına baxmayaraq, fəaliyyət düzgün qurulmamışdır. Ona görə də nazirlik Xüsusi Əməliyyat-Axtarış Tədbirləri Şöbəsinin fəaliyyətinin qanunvericiliyə uyğun təşkil edilməsi üçün tədbirlər görməlidir. Nəzərə alınmalıdır ki, bu qurum cinayətkarlığa qarşı mübarizədə və asayişin təmin olunmasında polis orqanları üçün əməliyyat marağı kəsb edən faktlar və şəxslər barədə məlumatlar əldə edilməsini həyata keçirir. Bunlar nəzərə alınaraq şöbə əməkdaşlarının digər fəaliyyətlərə cəlb olunmasına yol verilməməli, əməliyyat-axtarış tədbirləri qanunauyğun sənədləşdirilməli, məxfilik təmin edilməli, şöbə funksional vəzifələrinin icrasını təmin etməlidir. Nazirlikdə kadr işinin təkmilləşdirilməsi, peşəkar kadr korpusunun yaradılması nəzarətdə saxlanmalıdır. Şəxsi heyətlə müvafiq xidməti dərslərin, kursların keçirilməsi, müsbət təcrübənin yayılması təşkil olunmalı, bu sahədə Orta İxtisas Polis Məktəbinin imkanlarından istifadə edilməlidir. Kadrların yerləşdirilməsi və xidmətdən xaric olunmasında əvvəllər mövcud olmuş ədalətsiz yanaşmalar aradan qaldırılmalı, xidmətdə fərqlənən əməkdaşların irəli çəkilməsi, stimullaşdırılması qanunvericiliyə uyğun aparılmalıdır. Rayon-şəhər polis idarə və şöbə rəislərinin, habelə digər vəzifəli şəxslərin istəklərinə uyğun yerdəyişmə aparılması məhdudlaşdırılmalı, belə təkliflər araşdırılmalı, əsaslandırılmalı və nəticəsinə uyğun qərarlar qəbul edilməlidir. Nazirliyin rəhbərliyi şəxsi heyət tərəfindən xidməti intizama və qanunçuluğa riayət olunmasına ciddi nəzarət etməlidir.

Diqqətə çatdırılmışdır ki, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında da nizam-intizam və döyüş hazırlığı möhkəmləndirilməlidir. Şəxsi heyətin xidmətdənkənar işlərə cəlb olunmasına bir daha yol verilməməli, hərbi qulluqçuların xidmət-məişət şəraiti diqqətdə saxlanmalıdır. Nazirlikdə analitik-planlaşdırma işi yaxşılaşdırılmalı, cinayətkarlığın strukturuna təsir göstərən faktorlar öyrənilməli, əməliyyat şəraiti, polis orqanlarının fəaliyyətinin nəticələri təhlil edilməli, icra intizamının yaxşılaşdırılması üçün tədbirlər görülməlidir. Nazirliyin xidmətlərinin idarəçilik, təşkilatçılıq fəaliyyəti, onların yerli qurumlara təsirinin səmərəliliyi artırılmalıdır. Vətəndaşların qəbuluna, şikayətlərinin araşdırılmasına diqqətlə yanaşılmalı, daha çox yerlərdə qəbullar aparılmalı, bununla bağlı polis sahə müvəkkillərinin fəaliyyəti gücləndirilməlidir. Yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması üçün onların qanunsuz əmək fəaliyyətinə cəlb edilməsi hallarına qarşı tədbirlər davam etdirilməli, gənclərin yad təsirlərdən qorunması diqqətdə saxlanmalıdır. Bundan sonrakı dövrdə, ilk növbədə, yol verilən nöqsanlar aradan qaldırılmalıdır. Muxtar respublikada polis orqanlarının işgüzarlıq keyfiyyətləri artırılmalı, polis dövlətə və xalqa sədaqətlə xidmət etməli, insanların inam və etibarını qazanmalıdır.

Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyevin ***"Gərək elə işləyəsiniz, özünüzü elə göstərəsiniz, vətəndaşlarla o qədər mülayim, amma cinayətkarlığa qarşı o qədər barışmaz olasınız ki, insanlar sizi dövlətin bir nümayəndəsi kimi sevsinlər"***, – fikirlərinin xidmətin təşkilində əsas götürülməsinin vacibliyini bildirərək demişdir ki, daxili işlər orqanlarının əməkdaşları yaradılan şəraitdən, maddi-texniki bazadan səmərəli istifadə etməli, xidməti günün tələbləri səviyyəsində qurmalıdırlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan təhsilin inkişafında liderdir

## Muxtar respublikanın ucqar dağ kəndlərinin şagirdləri bilik səviyyəsinə görə Azərbaycan miqyasında davamlı şəkildə necə rekordçu olurlar?



*...Azərbaycanda ən çox xarici tələbənin hansı ali məktəbdə təhsil aldığını bilirsinizmi?*

Bu heç də yaşı 80-100 olan universitetlər, tanınmış akademiyalar deyil. Blokada şəraitinin ağır çətinlikləri, fəsadları altında fəaliyyət göstərən Naxçıvan Dövlət Universitetidir (NDU)...

Bu informasiya muxtar respublikada təhsillə bağlı eşitdiyimiz ilk, ancaq son müsbət təəccübümüz olmadı. Bəli, təhsildə heyrətə səbəb olan faktlar, proseslər nə yaxşı ki, hələ də var imiş...

### *55 yaşlı müdrik cavan*

1967-ci ildə 3 ixtisas üzrə 3 ştatlı müəllim və 102 tələbə ilə Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi ilk qədəmini atan, 1972-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutuna çevrilən, artıq 22 ildir, dövlət universiteti kimi fəaliyyət göstərən bu 55 yaşlı ali məktəb indi muxtar respublikanın təhsil bayraqdarıdır. Bununla bərabər, ölkə miqyasında xeyli təhsil ilklərinə müəlliflik edir və pafoslu planları, bəlağətli hədəfləri ilə deyil, məhz konkret fəaliyyət nəticələri, real uğurları ilə çox "təhsil flaqmanından" önə keçir.

Dahi şəxsiyyət Heydər Əliyev Naxçıvan Dövlət Universitetini hər zaman xüsusi himayə edib, onun inkişafı üçün düzgün yol müəyyənləşdirib. İlk dəfə 48 il əvvəl – 1974-cü ildə olduğu, sonradan isə dəfələrlə ziyarət etdiyi universitet barədə ulu öndər deyirdi: ***"Çox xoşbəxtəm ki, mən bu universitetin yaranmasının təməlini qoyanlardan biri və onun təşəbbüskarıyam. Böyük iftixar hissi keçirirəm ki, əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir. Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Naxçıvan Dövlət Universiteti isə Naxçıvan təhsilinin zirvəsidir".***



Bu qayğı Prezident cənab İlham Əliyev tərəfindən də davam etdirilib. Dəfələrlə olduğu, hər dəfə də mühüm infrastruktur açılışlarını etdiyi universitet barədə dövlət başçısının bu sözləri, xüsusilə diqqət çəkir: ***"Naxçıvan Dövlət Universiteti böyük və şərəfli yol keçmişdir. Mən şadam ki, universitet çox sürətlə inkişaf edir, burada çox böyük işlər görülür. Universitet dünyanın aparıcı ali məktəbləri ilə çox yaxşı işgüzar əlaqələr yarada bilibdir. Burada müxtəlif ölkələrdən tələbələr oxuyur. Bu da onu göstərir ki, Naxçıvan Dövlət Universitetinin nüfuzu dünyada kifayət qədər yüksək səviyyədədir. Burada görüləcək işlər, yeni fakültələrin açılması və gələcək planlar, əlbəttə, imkan verəcək ki, Naxçıvan Dövlət Universiteti nəinki regionda, hətta dünya miqyasında tanınmış ali məktəblərin birinə çevriləcəkdir".***

Prezident Naxçıvan Dövlət Universiteti qarşısında konkret məqsəd müəyyənləşdirmişdi və 15 il öncə elan edilən bu hədəf indi gerçəyə çevrilir. Bu mövzuda universitetin rektoru Elbrus İsayev böyük şövqlə, qürurla danışır. Ölkənin ən gənc rektoru olan Elbrus müəllim universitetin sabahı ilə bağlı aydın vizyona, prinsipial mövqeyə, ən əsası isə əminliyə sahibdir. Onunla söhbətləşdikcə, əməl hesabatını dinlədikcə onun öz fəaliyyətində müasir çağırışlarla mükəmməl ənənələri uğurla birləşdirdiyini, məsuliyyət daşıdığı sahəni nəticəsiz, populist eksperimentlərdən qoruyaraq düzgün məcrada inkişaf etdirdiyini və etimada bəslədiyi sədaqəti aydın görmək olur. Maraqlı məqam odur ki, rektorun tələbəlikdən etibarən həyatı məhz bu universitetlə bağlıdır. Burada bakalavr, magistr, doktorantura təhsili alıb, tələbəlik illərində universitet Gənclər Təşkilatının, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifələrində çalışıb. Müəllimi, baş müəllimi, dekanı olduğu universitetə rəhbərlik 3 il öncə ona həvalə edilib. Çoxsaylı təltif, mükafata sahibdir, elə ən sonuncusunu xatırladaq: "2021-ci ilin ən yaxşı rektoru" sosial sorğusunun qalibi olub.

Rektorla bərabər universitetin korpuslarını gəzirik. Onun "universitet şəhərciyi" ifadəsi ilə razılaşmıram. Bura şəhərcik deyil, elə şəhərdir – müasir gənclər şəhəri, modern təhsil şəhəri! 108 hektarlıq ərazidə 13 tədris korpusundan əlavə, elektron kitabxana, konservatoriya, sosial xidmət mərkəzi, universitet xəstəxanası, olimpiya idman mərkəzi, Tələbə evi, Qonaq evi, 2 stadion və digər çoxsaylı təhsil-sosial infrastrukturları yerləşir. Hər biri də 4-6 mərtəbəli, tam təmirli, ən son nəsil avadanlıqlarla təchiz edilmiş, zövqlə tikilmiş binalar...

Əslində, bütün korpuslarda olmaq üçün heç bir gün də kifayət etməz. Həyat burada hər addımda qaynayır. Hazırda universitetdə 451 professor-müəllim heyəti çalışır ki, onların da arasında Milli Elmlər Akademiyasının müxbir üzvü, elmlər doktoru, professor, fəlsəfə doktoru, Xalq rəssamı, Əməkdar elm xadimi, Əməkdar müəllim, Əməkdar artist, Əməkdar



mədəniyyət işçisi və digər yüksək elmi-ictimai statusu şərəflə daşıyanlar var. 12 fakültədə bakalavriat səviyyəsi üzrə 70 ixtisas, magistraturada 82 ixtisaslaşma, doktoranturada 52 və rezidentura üzrə 32 ixtisasda, ümumilikdə, 8 minə yaxın tələbə təhsil alır. 13 ixtisasda 516 tələbəyə təhsil verən Musiqi Kolleci də ötən il universitetin tabeliyinə verilib. Rektor növbəti iki il ərzində tələbə sayının 10 min nəfəri keçəcəyinə əmindir.



Xarici tələbələrlə qarşılaşırıq. Elbrus İsayev məlumat verir ki, ümumilikdə, burada bakalavr və magistratura səviyyəsində 9 ölkədən 1493 tələbə təhsil alır. Bu rəqəm indi ölkə üzrə rekord göstəricidir. Deməli, illərboyu muxtar respublikada minlərlə xarici tələbə təhsil alıb. Tələbələrin hansı ölkələrdən gəlmələri ilə maraqlanırıq. Türkiyə, İran, Rusiya, Pakistan, Özbəkistan və digərləri sırasında dünyanın ən modern təhsil modellərindən birinə malik Cənubi Koreyadan da tələbə olduğunu eşidəndə təəccüblənirik. Cənubi Koreyanın KOICA təşkilatı ilə birlikdə "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsini həyata keçirən Naxçıvan Dövlət Universitetinin ABŞ-dan İngiltərəyə, Çindən Rusiyaya, Fransadan Misirə, Almaniyadan Pakistana, İspaniyadan İrana qədər, bir sözlə, dünyanın 50-dən çox ölkəsinin 100-dən artıq ali təhsil ocağı ilə faydalı əməkdaşlıq əlaqələri var.

Maraqlıdır, axı o uzaq ölkələrdən gələn tələbə, özü də minlərlə tələbə niyə məhz Naxçıvanı seçir? Rektor bunun səbəblərini izah edir: həm normal yaşam üçün tələb olunan bölgənin yüksək inkişaf və sabitlik göstəriciləri, həm təhsil nailiyyətləri, həm də burada gördükləri yüksək qayğı, himayə, qonaqpərvərlik... Digər səbəblərin də hər biri əsaslıdır. Məsələn, əcnəbi tələbələrə davamlı olaraq ərzaq payı ayrılır. Pandemiya dövründə isə muxtar respublika rəhbəri tərəfindən xarici tələbələrə maddi dəstək göstərilir, soyuducuları boş qalmır. Bu mənəvi dəyərlər kontekstində bu universitetin xaricdə əsas təbliğatını məhz burada təhsil almış, indi də təhsil alan tələbələr aparır və həmvətənlərini bu ali təhsil ocağına cəlb edirlər.

Xatırladaq ki, Naxçıvan Dövlət Universitetində təhsil alan yerli tələbələrin coğrafiyası Azərbaycanın bütün bölgələrini əhatə edir.

### *Populist planlar yox, məhz real nəticəli innovasiyalar var*

Avropa Rektorlar Klubu tərəfindən "Minilliyin universiteti" adına layiq görülən universitet yeni texnologiyaların tətbiqi, tədrisin səviyyəsi, mənimsəmə və davamiyyətə görə Azərbaycan ali məktəblərinin reytinq cədvəlində də iki dəfə birinci yerə sahib olub.

Ali təhsil ocağının bir nailiyyəti də tələbələrin təkmil təcrübə keçməsini və nəticədə, sonradan rahat iş tapa bilməsini təmin edəcək layihənin artıq üç ildir, icra olunmasıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müəllifi olduğu bu təşəbbüs əsasında universitetdə bakalavriat səviyyəsi üzrə 70 ixtisas müvafiq olaraq 34 dövlət təşkilatına, subbakalavriat səviyyəsi üzrə isə 13 ixtisas 4 dövlət təşkilatına hamiliyə verilib. Dövlət strukturlarının rəhbərləri, nazirlər tələbələrlə mütəmadi görüşür, təmsilçiləri onlara mühazirələr oxuyur, təcrübə prosesinin keyfiyyətli gedişini təmin edir, nəticədə, fərqlənən tələbələr işlə təmin olunur. Rektorun təbirincə desək, ixtisasların dövlət qurumlarına hamiliyə verilməsi kadr potensialının inkişafı ilə yanaşı, gənclərin istedadlarının üzə çıxarılması, ideyaların reallaşması və startap təşəbbüslərinin dəstəklənməsi sahəsində mühüm addımdır.

Bu, Azərbaycan təhsilində bir ilkdir, amma Naxçıvan miqyası üçün yeganə ilk deyil... Ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində Distant Təhsil Mərkəzi istifadəyə verilib. Elektron universitetin fəaliyyətə başlaması isə Azərbaycan ali təhsil məkanında büdcəsinə və layihəsinin genişliyinə görə ən irihəcmli və əhəmiyyətli layihələrdəndir. Elektron təhsil, onlayn sənəd dövriyyəsi, akademik idarəetmə və digər təhsilin idarəedilməsi modellərini özündə birləşdirən Elektron universitet təhsilin elektron vasitələrlə həyata keçirilməsi ilə yanaşı, elektron imtahanları da əhatə edir.

İnnovasiyalar, dövrün qlobal trendlərinə qoşulma, yeni çağırışlara uyğun mütəxəssis yetişdirmə müasir təhsilin əsas faktorlarıdır. Ancaq ölkə miqyasında bu sahədə hələ də yetərincə səmərəli nəticələr əldə etməyən ali məktəblər var. Bəs Naxçıvan Dövlət Universitetində bu sahədə vəziyyət necədir?

Rektor Elbrus İsayev bu istiqamətdə həyata keçirilən çoxsaylı layihə, onların nəticələrindən danışır. Məsələn, Ali Məclis Sədrinin təşəbbüsü ilə yaradılan "Startap Naxçıvan" hərəkatı universitetin müasir təfəkkürlü peşəkar mütəxəssis hazırlığına, tələbə-gənclərdə innovativ ideyaların üzə çıxarılmasına, yaradıcı düşüncənin inkişafına xidmət edir. Universitetdə gənclərin layihələrini, ideyalarını dəstəkləmək üçün yaradılan İnnovasiya mərkəzi və İnnovasiya laboratoriyası tələbələrin startapla bağlı biliklərinin formalaşması, biznes layihə və planlarının qurulması, maarifləndirici treninqlərin keçirilməsini təmin edir. Eyni zamanda startap hərəkatına qoşulmanı optimallaşdırmaq və operativ əlaqələrin qurulması məqsədilə "İdeya bankı" fəaliyyət göstərir. Hazırda 20-yə yaxın startap layihəsi icra olunur.

Tədris prosesində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində professor-müəllim heyətinin fənlər üzrə mühazirə mətnləri elektronlaşdırılıb və ixtisaslar üzrə tələbələrin şəxsi kabinetlərinə yerləşdirilib. Bu isə etiraf edək ki, ölkə ali məktəblərində rastlanan azsaylı faktlardandır və daim tələbələrin haqlı narazılığını yaradır. İmtahan sessiyasından əvvəl tələbələrin imtahanaqədərki balları şəxsi kabinetlərinə yüklənilir. Ötən il elektron test üsulu ilə 1141 imtahan keçirilib. Ali təhsil ocağının "E-cədvəl" mobil tətbiqi Azərbaycanın milli internet mükafatına layiq görülüb. Rəqəmsal ödəniş xidmətlərinin tətbiqi və nağdsız hesablaşmaların genişləndirilməsi məqsədilə tələbələrə yeni nəsil smart tələbə kartları verilib.

Tikintisi davam edən nəhəng kompleksin qarşısındayıq. Elbrus İsayev "Bura gələcəkdə yalnız universitetimizin və muxtar respublikanın deyil, bütün Azərbaycanın ən müasir elmi-texnoloji mərkəzlərindən olacaq", – deyir. Rektorun mütləq əminliklə gələcək təyinatını müəyyənləşdirdiyi məkanla maraqlanırıq. Bura Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkı olacaq.

Bu infrastrukturu Ali Məclisin Sədri cənab Vasif Talıbovun növbəti innovasiya təşəbbüsü kimi səciyyələndirən rektor qeyd edir ki, ümumiyyətlə, dünyada az sayda universitetdə texnopark vardır. Bura universitetin imkanlarını daha da genişləndirməklə yanaşı, beynəlxalq rəqabətqabiliyyətliliyin təmin olunması, innovativ layihələrin dəstəklənməsi və keyfiyyətli kadr hazırlığı kimi məsələlərə böyük təsir imkanları yaradacaq. 5 mərtəbəli Texnologiyalar Parkı universitetin 43 ixtisasının fəaliyyət sahəsinə daxil olacaq.

Layihəyə nəzər salırıq. Nano araşdırmalar, biotexnologiyalar, prototip mərkəzləri, proqramlaşdırma və avtomatlaşdırma, texnoservis, innovasiya, layihələrin əlaqələndirilməsi, informasiya texnologiyaları, süni intellekt elmi-tədqiqat mərkəzləri, incəsənət, dizayn və memarlıq layihələri xidməti, biznes inkubatoru, ideya bankı, energetika, startap mərkəzləri, nəbatat bağı, kənd təsərrüfatı və aqronomluq, coğrafiya, meliorasiya, arıçılıq sahələri, biopark, texnopark binaları... Bəli, bunlar Naxçıvan Dövlət Universitetində mövcud olacaq!

### *Qədim alimlər yurdunda modern elmi yeniliklər*

Universitet ərazisində hərbi geyimli gənclərlə qarşılaşırıq. Məlum olur ki, onlar Tibb fakültəsində ötən ildən fəaliyyətə başlayan Hərbi həkim ixtisası üzrə təhsil alan tələbələrdir. Tibb fakültəsində olarkən isə maraqlı məqamla rastlaşırıq. Əczaçılıq və biokimya laboratoriyalarında müəllimlərlə yanaşı, tələbələr də iş başında idi. Yeni dərman vasitələri üzrə araşdırmalar aparılırdı. Məlum oldu ki, fakültənin dekanı, dosent Elsevər Əsədovun "Arı vərəmumu əsaslı oral və nazal sprey" layihəsi artıq patent üçün Əqli Mülkiyyət üzrə Dövlət Agentliyinə göndərilib və ilkin mərhələdən keçib. Qeyd edək ki, bu dərman vasitəsi universitetin müəllim və tələbələri ilə yanaşı, artıq ətrafda da geniş populyarlıq qazanıb və pandemiyanın fəsadlarından qorunmaq üçün təsirli sprey kimi qəbul olunur.

Bəs Naxçıvan Dövlət Universitetində – bu gənclər şəhərində tələbələrin dərsdənkənar asudə vaxtı necə keçir? Əvvəl yataqxanadan başlayaq. Tam təminatlı, müasir təchizatlı, yüksək təmirli, 2 korpuslu, ən əsası, bəlkə də, simvolik ödənişli sayılan yataqxana 500-ə yaxın tələbənin isti ocağına, evinə çevrilib. Yaxınlıqdakı üçmərtəbəli Sosial Xidmət Mərkəzində isə tələbənin cibinə uyğun kafelər, istirahət, sərgi, mədəniyyət məkanları günboyu tələbələrin istifadəsindədir. Universitetin öz xəstəxanası da var. 3 mərtəbəli korpusda cərrahiyyə bloku, reanimasiya palataları, elektrokardioqrafiya, ultrasəs, rentgen və müayinə otaqları, klinik laboratoriya, aptek, 3 auditoriya, oftalmoloji, stomatoloji kabinələr və digər lazımi mükəmməl tibbi infrastruktur yaradılıb. Tələbə və müəllimlərin ixtiyarında təmənnasız olan bu xəstəxana həm də Tibb fakültəsinin təcrübə məkanıdır.

Tələbə-Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə Turizm Assosiasiyası, Tələbə İnformasiya Mərkəzi, tələbə teatr və opera studiyaları, xor, vokal və rəqs qrupları, idman klubu universitetdə tələbələrin yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının,

*Ardı 3-cü səhifədə*

dünyagörüşlərinin, təşkilatçılıq qabiliyyətlərinin daha da inkişaf etdirilməsinə, asudə vaxtlarının səmərəli təşkilinə geniş imkanlar yaradır. Universitetin gənc müəllimi Əziz Qasımovun bu günlərdə gənclər siyasəti və gənclərlə iş sahəsi



üzrə fərqləndiyinə görə Prezident mükafatına layiq görülməsi isə həm də elə Naxçıvan Dövlət Universitetinə dövlət başçısının növbəti etimadıdır. Qeyd edək ki, universitetin Tələbə-Gənclər Təşkilatı da "İlin ən yaxşı Tələbə-Gənclər Təşkilatı" nominasiyası üzrə mükafata layiq görülüb.

100 mindən artıq kitabxana fondu olan Naxçıvan Dövlət Universitetində ən yüksək kampus simsiz internet şəbəkəsindən istifadə olunur. Burada 3 internet mərkəzi, Media mərkəzi,



Universitet televiziyası, radiosu, nəşriyyatı, "Elmi əsərlər" jurnalı, "Yeni fikir" qəzeti və bir neçə muzey fəaliyyət göstərir.

Naxçıvan Dövlət Universiteti müasir təhsil mərkəzi olmaqla yanaşı, həm də mükəmməl elm məkanı kimi formalaşır. Bu isə universitetin əsas fəaliyyət göstəricilərindən, mühüm qiymətləndirmə əmsallarından biri olmaqla yanaşı, daim "alimlər



yurdu" kimi səciyyələnən Naxçıvanın nüfuzuna da böyük töhfədir.

Yeri gəlmişkən, bu ənənənin yaşaması üçün Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi də xüsusi səy göstərir. 20 il öncə fəaliyyətə başlayan bölmədə 6 elmi-tədqiqat institutu birləşib. Burada çalışan 248 əməkdaş, o cümlədən 93 elmi işçi sırasında iki akademik, 4 müxbir üzvü, 5 elmlər doktoru, 50 fəlsəfə doktoru var. İndiyədək



dissertasiya şuralarında 17 elmlər, 98 fəlsəfə doktoru dissertasiyası müdafiə olunub. Əməkdaşlarının 252 monoqrafiyası, 235 kitabı, çoxsaylı metodik və dərs vəsaiti, elmi məqalələri, atlas və xəritələri çap olunan bölmənin alimləri tərəfindən 2 cilddə "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", "Naxçıvan tarixi atlası", 3 cilddə "Naxçıvan tarixi", "Naxçıvan teatrının salnaməsi", 3 cilddə "Naxçıvanın folkloru antologiyası", "Dədə Qorqud yurdu – Naxçıvan" ta-



rixi-coğrafi və etnoqrafik atlası, 2 cilddə Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitabı", 2 cilddə "Naxçıvan coğrafiyası" və digər fundamental nəşrlər işıq üzü görüb.

*Prezident qayğısının əməli nəticələri*

Blokadanın məhrumiyyətləri altında fəaliyyət göstərən 55 yaşlı universitetin hələ çox kiçik qisminə toxunduğumuz genişmiqyaslı nailiyyətləri, ümumilikdə, Naxçıvanda təhsilə, elmə olan qayğının və himayənin təcəssümüdür. Naxçıvan ənənələr diyarıdır, burada hər bir bucaqda hansısa tarixi ənənənin nişanına rastlamaq, hər bir evdə ənənələrin yaşadıldığına şahid olmaq mümkündür. Bu ənənələrin ən mükəmməllərindən biri də elə qeyd etdiyimiz təhsilə və elmə olan bağlılıqdır.

Naxçıvanda ən ucqar yaşayış məntəqəsində, ən hündür dağ kəndində belə, iki-üçmərtəbəli, tam isidilən, dərslikdən kompüterə, idman zalından laboratoriyalara qədər müasir təhsil üçün tələb olunan bütün vasitələrlə təmin olunan orta məktəblər tikilib. Hələ kəndlərdə üçmərtəbəli musiqi məktəblərini görmək də böyük təəccüb yaradır.

Prezident cənab İlham Əliyevin Naxçıvanda açılış lentini kəsdiyi onlarca orta məktəb necə modern və təminatlıdırsa, dağ kəndlərindəki yüzlərlə digər məktəb də onlardan əsla və əsla fərqlənmir!

Son onilliklərdə muxtar respublikada 200-dən artıq məktəb binası istifadəyə verilib, hamısı da ən müasir səviyyədə! Muxtar respublikanın ümumtəhsil məktəblərində oxuyan 53 mindən çox şagirdin təhsili ilə 7257 müəllim məşğul olur. 5700-dən artıq kompüter və 650-dən artıq elektron lövhə quraşdırılan təhsil müəssisələrinin hamısında sürətli internetə çıxış var. 22 mindən çox şagird 103 ümumtəhsil məktəbində STEAM təhsilinə cəlb olunub. İstedadı ilə fərqlənən şagirdlərin adı gənc istedadların "Qızıl kitabı"na yazılır və onlar Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünü alırlar.

Bu yüksək səviyyəli və təchizatlı məktəb infrastrukturları Azərbaycan Prezidenti cənab İlham Əliyevin şəxsi nəzarəti, birbaşa himayəsi, göstərişi əsasında inşa olunub, Ali Məclisin Sədri cənab Vasif Talıbovun fədakarlığı, zəhməti ilə ərsəyə gəlib. Amma Azərbaycan reallığında bir həqiqət də var: əsas məktəbin vizual göstəricisi deyil, mühüm olan oradakı təhsilin keyfiyyətidir!

Düzgün istiqamət, mükəmməl təcrübə və vicdanlı müəllim hesabına çıraq işığında onilliklərboyu əsl ziyalılar yetişib, akademiklərin təhsil yolu uçuq məktəb binalarından başlayıb! Təhsil – sabahımızdır, təhsilin bugünkü durumu sabahımızın necə olacağını elə indidən müəyyənləşdirir! Təhsilin keyfiyyət göstəricisi kimi, yaqin, onlarca amil var. Bəs biz nəyə, hansına istinad edək?

İndi olacsız valideynlər, on minlərlə ailə ümidi, yəni normal təhsili məktəbdə yox, ondan kənarda axtarır. Ən böyük gerçəklik isə "repetitor məktəbi"nin orta məktəbdən daha səmərəli, daha əhəmiyyətli nəticə verən olmasıdır! Naxçıvan timsalında isə biz fərqli, ürəkaçan, təsəlli verən nümunəni görürük. Təhsilin keyfiyyət nəticələrini sadə insanlar birmənalı olaraq ali məktəblərə qəbulun nəticə statistikasında axtarır ki, bu göstəricidə də əsas payı, əlbəttə, "repetitor məktəbi" tutur. Naxçıvanda isə repetitorluq, sadəcə, yoxdur! Dil, sənət, ilkin təlimləri öyrədən kurslar və təmənnasız, yalnız öz 3-4 geri qalan şagirdinə gücləndirici əlavə dərsdənkənar vaxt ayıran vicdanlı müəllimləri kənara qoysaq, yalnız və yalnız məktəb var!

*Təcrübə və məsuliyyət – islahatların uğur rəhni*

Ötən tədris ilinin qəbul statistikasının monitorinqini Dövlət İmtahan Mərkəzi (DİM) hələ ki, yekunlaşdırmayıb. Sadəcə, o məlumdur ki, 2021-ci ildə muxtar respublika məzunlarının ali təhsil müəssisələrinə və orta ixtisas məktəblərinə qəbul göstəricisi 73 faiz təşkil edib. 261 məzun 500-dən yuxarı bal toplayıb, 3-ü Prezident təqaüdünə layiq görülüb.

Amma öncəki illərin rəqəmlərini DİM elan edib. Kiçik araşdırma apardıq. Məsələn, 2020-ci ildə I mərhələ üzrə buraxılış imtahanlarında bölgələr üzrə ən yaxşı göstərici, yəni lider mövqe Naxçıvan Muxtar Respublikasına – Ordubada məxsusdur. II mərhələdə isə rayonlar üzrə təsnifatların ilk onluğunda muxtar respublikanın 4 rayonu var! Hətta paytaxt Bakının bura düşmədiyi, ilk yerində isə ən məşhur dövlət və özəl liseylərin toplusunun yerləşdiyi siyahıda ikinci yeri Ordubad, 5-ci yeri Naxçıvan şəhəri, 7-ci yeri Kəngərli, 9-cu yeri Şahbuz tutur. Yüksək bal toplayan tələbələr siyahısında ilk beşlikdə isə muxtar respublika 2 yaşayış məntəqəsi ilə təmsil olunur: Naxçıvan şəhəri və Şahbuz. 2019-cu ildə də abituriyentlərin qəbul göstəricilərinə görə ilk 15-likdə muxtar respublika 4 yaşayış məntəqəsi ilə təmsil olunub: Şahbuz, Kəngərli, Ordubad və Naxçıvan şəhəri (paytaxt Bakıdan bir pillə öndə).

Yaxud ölkəmizdə fəaliyyət göstərən ali təhsil müəssisələrinə 2020-ci il qəbulunda qruplar üzrə orta bal göstəricilərində də Naxçıvan Dövlət Universiteti öndədir. II qrupda bu universitet görün hansı ali təhsil ocaqlarını üstələyir: Bakı Dövlət Universiteti, Dövlət Neft və Sənaye, Texniki, Memarlıq və İnşaat, Pedaqoji, Dillər, Slavyan, Bakı Mühəndislik, Mədəniyyət və İncəsənət, Turizm və Menecment və digər bütün bölgə universitetlərini... III qrupda yenə də paytaxtın xeyli, bölgələrin isə bütün ali məktəblərini geridə qoyan Naxçıvan Dövlət Universiteti IV qrupda Tibb Universitetindən sonra ikinci nəticə ilə 17 ali məktəbin önündədir. Ümumilikdə isə bu universitet qəbul balına görə 42 ali məktəb arasında 12-ci mövqedə olub.

Unutmayaq, Dövlət İmtahan Mərkəzinin real rəqəmləri, hesabatı təhsilin keyfiyyəti barədə mülahizə yürütməyə, rəy söyləməyə əsas verən hələ ki, yeganə istinaddır və bunun timsalında ölkə təhsilinin, o cümlədən Naxçıvan təhsilinin vəziyyətini düzgün dəyərləndirə bilərik. Ancaq bir məqam da var: "Ordubad, Şahbuz, Kəngərli və digər rayon məktəbləri ölkə üzrə öndədir", – deyib, mövzunun üstündən sakitliklə keçməyək. Blokadanın ağır və çətin məhrumiyyətlərini, dağ kəndlərinin spesifik problemlərini, təbiətin bu bölgə üçün davamlı fəsadlarını və digər onlarca obyektiv amili nəzərə alaraq qazanılan nailiyyətə qiymət verək.

Bu, qəhrəmanlıqdır, səmimi vətənpərvərlikdir, əsl Azərbaycansevərlikdir, sabahımıza ən dəyərli töhfədir!..

Naxçıvanda Prezident cənab İlham Əliyevin və Mehriban xanım Əliyevanın təhsillə bağlı tələblərinin, hədəflərinin, məqsədlərinin gerçəkləşməsinə vicdanla, məsuliyyətlə yanaşırlar və bunu vətəndaşlıq borcu kimi qəbul edirlər!

*Buna görə də Prezident cənab İlham Əliyev Naxçıvanı inkişafın bütün istiqamətləri üzrə Azərbaycanın lider və rekordsmen bölgəsi elan edib!*

*Təhsil səviyyəsini Azərbaycan miqyasında lider və rekordsmen mövqeyinə çıxaran Naxçıvanın indi Prezident cənab İlham Əliyev qarşısında bir öhdəliyi də var: bu nailiyyətləri qlobal məkana keçirtmək. Bunu da bacaracaqlar!..*

**İxtiyar HÜSEYNLİ**
**Bakı-Naxçıvan-Bakı**
**"Azərbaycan" qəzeti, 6 fevral 2022-ci il**

## Şahmat çempionatında ilk gedişlər edilib



Fevralın 5-də Naxçıvan Şahmat Mərkəzində şahmat üzrə kişilər arasında keçirilən Azərbaycan çempionatına start verilib. Çempionat Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov və Azərbaycan Respublikası Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbovun şahmat lövhəsi üzərindəki rəmzi gedişləri ilə start götürüb. Naxçıvan Muxtar Respublikasının ardıcıl olaraq ikinci dəfə ev sahibliyi etdiyi çempionatda 24 zəka sahibi birincilik uğrunda mübarizə aparır. Fevralın 4-də açılış mərasimi keçirilən kişilər arasında Azərbaycan çempionatına fevralın 18-də yekun vurulacaq. Çempionatda I-IV yerləri tutmuş şahmatçılar mart ayında Sloveniyada keçirilən kişilər arasında Avropa çempionatına vəsiqə qazanacaq.

## Muxtar respublika gəncləri ilə görüş olub



Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbovun Naxçıvan Muxtar Respublikasında fəal gənclər, könüllülər və idmançılarla görüşü keçirilib. Nazirliyin digər əməkdaşlarının da iştirak etdiyi görüş "Naxçıvan" Universitetinin iclas zalında təşkil olunub. Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Ramil Hacı nazir Fərid Qayıbovu və digər qonaqları burada görməkdən məmnun olduğunu bildirib. Vurğulanıb ki, bu görüş mahiyyət etibarilə gənc nəslin yeni fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, müasir dünya gəncliyinə inteqrasiyası, gənclərlə iş sahəsində birgə əməkdaşlıq baxımından önəmlidir.

Görüş zamanı fəal gənclər çıxış edib, muxtar respublikada fəaliyyət göstərən gənclər təşkilatlarının fəaliyyətinin tənzimlənməsi üçün qanunvericilik məsələləri, beynəlxalq əməkdaşlıq, gənclərin inkişafında təşkilatların rolu, gənclərin rəqəmsal bacarıqlarının inkişafı, könüllülük fəaliyyəti kimi məsələlər ətrafında müzakirələr aparılıb. Gənclər maraqlı və səmimi görüş üçün ölkənin gənclər və idman nazirinə minnətdarlıqlarını bildiriblər. Nazir Fərid Qayıbov belə görüşlərin davamlı olacağını və nazirliklə gənclər təşkilatlarının əməkdaşlığının daha da genişlənəcəyini bildirib.

## Azərbaycan çempionatında 3-cü turun oyunları keçirilib



Naxçıvan Şahmat Mərkəzində keçirilən kişilər arasında şahmat üzrə Azərbaycan çempionatında 3-cü turun oyunları keçirilib.

Bu turda naxçıvanlı zəka sahiblərindən beynəlxalq usta Pərviz Qasımov (2379) FIDE ustası Elvin Bayramovla (2280) üz-üzə gəlib. Görüş həmyerlimizin qələbəsi ilə başa çatıb. FIDE ustası Sadiq Məmmədov (2220) isə beynəlxalq usta Murad İbrahimli (2418) ilə görüşdən məğlub ayrılıb. Bu turda beynəlxalq usta Toğrul Həsənzadə (2292) Atilla Eynullayevi (2324), qrossmeyster Urfan Sevdimalıyev (2359) FIDE ustası Zaur Bayramovu (2357), beynəlxalq usta Talıb Babayev (2256) isə FIDE ustası Şiroğlan Talıbovu (2307) sınağa çəkib. Bu görüşlərdə tamaşaçılar Toğrulun qələbəsinə, Urfanın heç-heçəsinə, Talıbın isə məğlubiyyətinə şahidlik ediblər.

Turnir cədvəlinin liderləri qrossmeyster Misrətdin İsgəndərovla (2566) qrossmeyster Vasif Durarbəylinin (2615) görüşündə qalib müəyyənləşməyib.

Qrossmeyster Aydın Süleymanlı (2530) bu turda qrossmeyster Nicat Məmmədova (2604) məğlub olub. FIDE ustası Xəzər Babazadə (2427) FIDE ustası Elmar Atakişiyevdən (2240) üstün olub. Qrossmeyster Fərid Abbasov (2527) isə beynəlxalq usta İsmayıl Şahəliyev (2380) ilə xalları yarı bölüb.

Çempionatın favoritlərindən biri qrossmeyster Eltac Səfərli (2597) Əhməd Əhmədzadə (2467) ilə görüşdə ağqara taxtanı "sülh"lə tərk edib. FIDE ustası Uğur İlyaslı (2310) ilə görüşdə beynəlxalq usta Məhəmməd Muradlı (2528) uğursuzluğa düçar olub. FIDE ustası Vüqar Manafov (2299) isə FIDE ustası Fərid Mustafayevi (2322) məğlub etməklə aktivinə bir xal yazdırıb.

3 turdan sonra turnir cədvəlinə Vasif Durarbəyli, Nicat Məmmədov və Misrətdin İsgəndərov 2,5 xalla başçılıq edirlər.

Qeyd edək ki, birinci mərhələ İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq. İlkin mərhələdə 1-4-cü yerləri tutan şahmatçılar 2-ci mərhələdə play-off sistemi üzrə yarımfinal (I-IV, II-III) və finalda ölkə çempionu müəyyən edəcəklər.

**Ceyhun MƏMMƏDOV**

***Fevralın 4-də Türkiyənin "Ordu kano klubu (ORKADO)" və "Fatsa off road klubu"nun üzvləri Naxçıvan Muxtar Respublikasına səfər ediblər. Qonaqlar səfər çərçivəsində Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunda Türkiyə və Azərbaycan kano idmançılarının yarışlar, tanıtım tədbirləri zamanı müxtəlif təbiət ərazilərində çəkdirdikləri şəkillərdən ibarət "Türkiyə-Azərbaycan dostluğu" adlı fotosərgi ilə tanış olublar. Qonaqlara məlumat verilib ki, yaranma tarixi eramızdan əvvələ təsadüf edən, olimpiya oyunlarının siyahısında yer alan qayıqla ələqəli idman növlərinin ən qədimi olan kano 1980-ci illərin sonlarından Türkiyədə əcnəbilər tərəfindən raftinglə birlikdə məşq edilməyə başlanıb. 1991 və 1992-ci illərdə Mərmərə Universiteti Bədən tərbiyəsi və idman fakültəsinin müəllim heyəti Köln İdman Liseyində kano kursları və məşğələlərinə qatılıb və universitetdə təhsilin necə verildiyini izləyib. Həmin heyət Türkiyəyə qayıtdıqdan sonra 1993-1994-cü tədris ilində ölkədə ilk dəfə olaraq öz məktəblərində idmanın açılmasına şərait yaradıblar. Son illərdə Türkiyədə yeni kano klubları yaradılıb, Türkiyə Kano Federasiyası öz fəaliyyətini xeyli genişləndirib, bu idman növü üzrə çoxlu sayda peşəkar idmançılar yetişib. Səfərin ikinci günü türkiyəli qonaqlar "Saat Meydanı" turistik istirahət mərkəzində stand qurub, Batabat yaylağında kano idman növünün tanıtımını ediblər. Kano klublarının üzvlərindən bir neçəsi "Şərq qapısı" qəzetinə müsahibə verib, layihənin məqsədi və səfər təəssüratlarını bölüşüblər:***

## Türkiyəli kanoçular: "Naxçıvanlı qardaşlarımızla keçirdiyimiz bu iki gün o qədər dəyərlidir ki, heç ayrılmaq istəmirik buradan"



***İbrahim Ethem Kibar – Fatsa rayon bələdiyyə sədri***: – Hər iki klubun üzvləri tərəfindən bu layihə ilə bağlı bələdiyyəmizə müraciət olunub. Layihənin məqsədi Türkiyə-Azərbaycan qardaşlığını nümayiş etdirmək idi. Bildiyimiz kimi, ötən il ölkəmizdə yaşanan təbii fəlakətlərdə, meşə yanğınlarında azərbaycanlı qardaşlarımız bizi yalnız buraxmadı, hərtərəfli dəstəyini göstərdi. Bizim kano klubu üzvləri də bu diqqət, kömək müqabilində burada bir sıra fəaliyyətlər sərgiləməyi, birliyimizi göstərən tədbirlər həyata keçirməyi özlərində mənəvi borc hesab edirlər. İkigünlük səfərimiz müddətində ilk olaraq Baş Konsulluqda gözəl, maraqlı fotosərgi açdıq, çox maraqla qarşılandı sərgimiz. Bundan başqa, bir sıra rəsmi və qeyri-rəsmi görüşlər də keçirdik. Ən maraqlı məqam isə məhz Naxçıvanın gözəl guşələrindən sayılan Batabatda kano idman növünün tanıtımı oldu. Naxçıvanlı qardaşlarımızla birgə doyunca əyləndik, yaddaqalan anlar yaşadıq. Hər iki ölkənin qardaşlığının daha da möhkəmlənməsinə xidmət edən bu layihə, şübhəsiz ki, yaxın gələcəkdə kano idman növünə marağın artmasında da böyük rol oynayacaq. Bu layihənin reallaşmasında əməyi keçən hər kəsə, eləcə də Naxçıvan Muxtar Respublikasında bizi qonaqpərvərliklə qarşılayan, bizə Vətənimizdəki doğmalığı hiss etdirən dostlarımıza, qardaşlarımıza səmimi minnətdarlığımızı ifadə edir, yaradılan şəraitə görə razılığımızı bildiririk.

***Mustafa Sarıkaya – Ordu kano klubunun sədri***: – Öncə onu deyim ki, 1999-2003-cü illərdə Naxçıvan Dövlət Universitetinin Coğrafiya ixtisasında təhsil almışam. İndi Türkiyədəki Anadolu İmam Hatib Liseyində Coğrafiya müəllimi kimi çalışıram. Naxçıvanlı tələbə yoldaşlarım, buradakı dostlarımla tez-tez telefonla danışırıq, ünsiyyətimiz, əlaqələrimiz çox olur. Təhsil alıb peşəyə yiyələndiyim, çörəyini yediyim, suyunu içdiyim bir diyarda olmaq çox qürurvericidir mənim üçün. Ümumiyyətlə, hər bir türkiyəli kimi mənim üçün də Azərbaycan ana Vətənim qədər çox doğma, əziz bir ölkədir. Ötən il Türkiyədə baş verən meşə yanğınlarında azərbaycanlı qardaşlarımız da öz dəstəklərini əsirgəmədilər. Onlar arasında tələbə yoldaşım, Azərbaycan Silahlı Qüvvələrində helikopter pilotu kimi çalışan naxçıvanlı Nurlan İsmayılov da var imiş. Tələbə yoldaşı kimi daim əlaqələrimiz vardı, telefon söhbəti zamanı onun da meşə yanğınlarının qarşısının alınmasında iştirakını eşidəndə çox duyğulandım və bu layihəni reallaşdırmağı özümə mənəvi borc hesab etdim. Məhz, bu mənada, Türkiyə-Azərbaycan dostluğu və qardaşlığına söykənən belə bir layihəni hazırlayıb həyata keçirdiyimiz üçün çox şadam. Layihə çərçivəsində ölkəmizin Naxçıvandakı Baş Konsulluğunda sərgilədiyimiz fotosərgi olduqca maraqla izləndi. Qeyd edim ki, sərgidə, əsasən, Vətən müharibəsi zamanı Azərbaycana dəstək vermək məqsədilə keçirdiyimiz tədbirlərdən çəkilən fotolar yer almışdı.

Təhsil aldığım dövrdən bu günə Naxçıvan inanılmaz şəkildə dəyişilib və gözəlləşib. Hər yerdə abadlıq, firavanlıq, səliqə-sahman könlümüzü oxşadı. Universitet illərimi, peşəmi mənə qazandıran bir diyarla qürur duydum.

***Üzeyir Ərdoğan – Fatsa off road klubunun sədri***: – "Yolumuz qardaşlıq, dostluq yolu, amalımız birdir", – deyib buraya üz tutduq. Səfərimiz çox gözəl, mənalı və yaddaqalan keçdi. Kano idman növü üzrə tədbirlərimiz çox maraqlı, həyəcanlı oldu, naxçıvanlı dostlarımızın məmnunluğu bizi də çox şad etdi. Yüksək qonaqpərvərliyə, alicənab davranışa görə də ayrıca minnətdarlığımızı bildiririk. Onu da deyim ki, kano klubu olaraq Türkiyənin bir sıra bölgələrində yarışlar keçiririk. Gürcüstanda, İranda da olmuşuq, Naxçıvandan sonra Azərbaycanın digər yerlərinə də getməyi düşünürük. Bu iki gün ərzində həm də Naxçıvanı yaxından tanımaq fürsətimiz oldu. Şəhərin görkəmini, interyerini çox bəyəndim. Bölgələr də ayrıca çox gözəldir, baxımlıdır. Batabat yaylağına səfərimiz zamanı avtomobilin pəncərəsindən kəndləri müşahidə etdim, müasir görkəm, ən yeni təhsil, səhiyyə, mədəniyyət ocaqları diqqətimi çəkdi. Ümumilikdə, bu ikigünlük səfərdən çox məmnun qaldıq. Gələcəkdə belə tədbirlərin daha tez-tez keçirilməsinə çalışacağıq.



Qardaş ölkənin Qaradəniz şəhərindən olan ***Zəkəriyyə Koçan*** deyir: – Dünyanın bir çox coğrafiyası ilə yaxından tanış olsam da, Naxçıvana ilk dəfədir ki, səfər edirəm. Burada 2 gün müddətində bir-birindən maraqlı və yaddaqalan anların şahidi olduq. Ekskursiyalarımız çərçivəsində rəngarəng fotoşəkillər çəkərək öz şəxsi media hesablarımızda izləyicilərimizlə bölüşdük. Həqiqətən, Naxçıvan bizim kimi bir çoxlarını özünə cəlb edə bilib. Çox sevindirici haldır ki, bu diyar uzun illər blokada şəraitində yaşamasına baxmayaraq, inkişaf edərək öz müstəqil və çiçəklənən dövrünü yaşayır. Bununla yanaşı, istər siyasi müstəvidə, istərsə də digər sahələrdə Azərbaycan və Türkiyə qardaşlığı bu gün bütün dünyanın diqqət mərkəzindədir. Tarix də sübut edir ki, hər iki qardaş ölkə ən mürəkkəb, çətin proseslərin məngənəsində olduqda belə, bir-birindən köməklərini əsirgəməyib. Bunu qardaş Azərbaycanın şanlı Vətən müharibəsində əldə etdiyi qələbənin timsalında da gördük, ötən müddətdə Türkiyənin bir çox regionlarında baş verən yanğın fəlakətindəki yardımında da bir daha şahid olduq. Hesab edirəm ki, hər iki ölkə arasında bu cür geniş əlaqələrin mövcudluğu gələcək dövrlərdə də özünü daha aydın göstərməklə bir çox uğurlara da imza atmağımıza vəsilə olacaq. Son olaraq qeyd edim ki, Naxçıvan gözəl və qonaqpərvər bir diyar kimi xatirəmdə həmişəlik qalacaqdır.

İstanbul şəhərindən olan digər müsahibimiz ***Zeki Acur*** söhbət zamanı bildirdi ki, Naxçıvan, həqiqətən, zəngin coğrafi mühiti, füsunkar təbiəti ilə buraya üz tutan hər bir kəsi özünə heyran qoyur. İlk dəfədir, səfər etməyimə baxmayaraq, heç bir yadlıq və özgəlik hiss etmirəm. Düşünürəm ki, insanların istiqanlı olması, qonaqpərvərliyi bizdə bu cür müsbət təəssüratlar yaradır. Turumuzun ikinci gününə Batabat yaylağına səfər etməklə başladıq. Havanın kəskin soyuqluğuna baxmayaraq, ekskursiyamız maraqlı və yaddaqalan oldu. Daha öncədən Azərbaycanın, o cümlədən Naxçıvanın kəskin, dəyişkən iqlim şəraiti haqqında eşitsəm də, ilk dəfədir, səfər etdiyim üçün onu hiss etmək məhz bu günə nəsib oldu. Bir məqamı da məxsusi olaraq vurğulamaq istərdim ki, Türkiyənin bir çox regionları ilə müqayisədə Naxçıvan çox sakit və müasir şəhərdir. Hər tərəfdə gedən tikinti-quruculuq, geniş yollar, müasir obyektlər və bunun kimi neçə-neçə maraqlı və gözəl proseslər bir daha bunu deməyə əsas verir ki, Naxçıvan, sözün əsl mənasında, geniş turizm potensialına sahibdir.

Müsahibim ***Durmuş Durmuş*** da öz təəssüratlarını bizimlə bölüşərək bildirdi ki, qardaş ölkəmiz Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda olduqları bu iki gün onlar üçün böyük önəm daşıdı: – Bir fotoqraf nöqteyi-nəzərindən mövzuya yanaşsaq, həm bir qonaq kimi burada olan turizm potensialı haqqında ətraflı məlumatlar qazanır, həm də qədim türk diyarımız olan Naxçıvanın tarixi ilə yaxından maraqlanıb, tanış oluruq. Vaxtımız xeyli maraqlı və səmərəli keçdi. İki gün ərzində Naxçıvanın qış mövsümünə uyğun olan turistik məkanlarına ekskursiyalar etdik, xeyli maraqlı və faydalı məlumatlar qazandıq. Bunlardan biri də təmiz havası və kəskin iqlimi ilə diqqəti cəlb edən Batabat yaylağına səfərimiz oldu. Buradakı gözəllikdən bir başqa mənəvi zövq aldıq, xatirə şəkilləri çəkərək səfərimizi əbədiləşdirdik. İlk dəfədir, səfər etməyimə baxmayaraq, bu diyar haqqında yüksək fikirlər qazandım, geniş məlumatlar əldə etdim. Ümid edirəm ki, Naxçıvana yenidən gəlmək şansı əldə edə biləcəyəm.

**✍ Nail ƏSGƏROV**
**✍ Məcid RƏŞADƏTOĞLU**

## Təlim keçirilib

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə "Buta Global Enerji-Tekstil" şirkəti tərəfindən nazirliyin və Naxçıvan Muxtar Respublikasının Radio-Televiziya Ötürücü Mərkəzinin aidiyyəti əməkdaşlarına yeni nəsil telekommunikasiya texnologiyalarının tətbiqinə dair təlim keçirilib.***



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar nazirinin müavini Həbib Novruzov bildirib ki, Ali Məclis Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada yeni nəsil telekommunikasiya şəbəkələrinin inkişafı istiqamətində irihəcmli layihələr həyata keçirilir, əhalinin müasir rabitə və internet xidmətləri ilə əhatə olunması diqqət mərkəzində saxlanılır.

Vurğulanıb ki, nazirlik tərəfindən kadr hazırlığı da prioritet olmaqla, işçilərin aidiyyəti sahələr üzrə qüvvədə olan qanunvericilik aktlarının, müasir standartlara cavab verən yeni nəsil telekommunikasiya sistemləri və xüsusiyyətləri, avtomat telefon stansiyaları və onların iş prinsipləri, rəqəmli televiziya və peyk yayımı, tezlik diapazonları və zolaqları, şəbəkə inzibatçılığı, proqramlaşdırma dilləri, informasiya təhlükəsizliyi, serverlər, məlumat bazaları, məftilli və fiberoptik xətt sahəsində zəruri biliklərə yiyələnmələri məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Yeni alınmış avadanlıqların istifadəsi üçün keçirilən təlim də bu qəbildəndir.

"Buta Global Enerji-Tekstil" şirkətinin radioölçmələr üzrə mütəxəssisi Ramazan Əliyev tərəfindən "Rohde & Schwarz Spectrum" analizator avadanlığının texniki göstəriciləri barədə ətraflı məlumat verib.

Təlimdə, həmçinin "Argus 156 tester" markalı avadanlıqlardan istifadə qaydaları və xüsusiyyətləri barədə də iştirakçılara məlumat verilib.

Bildirilib ki, "Argus 156 tester" markalı avadanlıqlar ölçmə və nəzarət sahəsində qabaqcıl yeni nəsil informasiya texnologiyalarını özündə əks etdirməklə çoxfunksiyalı siqnalölçmə imkanına malikdir ki, bu da, öz növbəsində, telekommunikasiya şəbəkələrində internet xidmətlərinin keyfiyyətinin ölçülməsini həyata keçirir və internet verilişində olan qırılmaları müəyyənləşdirir. Mütəxəssis tərəfindən, həmçinin abonentin ünvanına daxil olan internetin gücünün və sürətinin ölçülməsi və görüləcək digər texniki tədbirlər barədə iştirakçılara ətraflı məlumat verilib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan gömrükçüləri 106 kiloqram narkotik vasitə aşkarlayıb

Naxçıvan gömrükçüləri tərəfindən daha iki fakt üzrə narkotik qaçaqmalçılığı cəhdlərinin qarşısı alınıb.

Belə ki, Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Polşa Respublikasına dekorativ daş yükü və hamam ləvazimatı aparan, Türkiyə Respublikası vətəndaşının idarə etdiyi 76AAH601/76AAJ764 dövlət nömrə nişanlı "Mercedes-Benz" markalı nəqliyyat vasitəsinə Culfa dövlət sərhədindən buraxılış məntəqəsində risk məlumatı əsasında gömrük baxışı həyata keçirilib. Yoxlama zamanı nəqliyyat vasitəsinin qoşqusuna yüklənmiş 51 ədəd duş kabin üçün plastik vanna altlığında xüsusi üsulla gizlədilmiş ümumi çəkisi 102 kiloqram 740 qram olan narkotik vasitə – heroin aşkar edilib.

Həmin nəqliyyat vasitəsinin ardınca Naxçıvan Muxtar Respublikası ərazisinə tranzit giriş edən, hərəkət marşrutu, yükü, idxalatçı və ixracatçının rekvizitləri eyni olan, Türkiyə Respublikası vətəndaşının idarə etdiyi 76AAH493/76AAK425 dövlət nömrə nişanlı "Mercedes-Benz" markalı nəqliyyat vasitəsinə Culfa dövlət sərhədindən buraxılış məntəqəsində gömrük baxışı həyata keçirilən zaman isə nəqliyyat vasitəsinin qoşqusuna yüklənmiş 2 ədəd duş kabin üçün plastik vanna altlığında gizlədilmiş ümumi çəkisi 4 kiloqram 230 qram olan narkotik vasitə – heroin aşkar olunub. Oxşar gizlətmə üsulundan istifadə edilməklə törədilmiş hər iki qaçaqmalçılıq əməli üzrə aşkarlanmış narkotik vasitənin ümumi xalis çəkisi 106 kiloqram 970 qram təşkil edib.

Qeyd olunan faktlarla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-cı maddəsinə (Qaçaqmalçılıq) uyğun olaraq hər iki şəxs barəsində cinayət işi açılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

### İtmişdir

Sədərək rayonu, Sədərək kənd sakini Bayramova Şəfiqə Paşa qızına məxsus JN-1134A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kəndində yerləşən Həsənov Ramiz Tağı oğlunun adına olan JN-548A inventar nömrəli Torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, "İstiqlal" küçəsində yerləşən qeyri-yaşayış binasının 27.12.2013-cü il tarixli, 1213008919 qeydiyyat nömrəli, MH seriyalı-0034011 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, Heydər Əliyev prospektində yerləşən qeyri-yaşayış binasının 27.12.2013-cü il tarixli, 1213008917 qeydiyyat nömrəli, MH seriyalı-0034010 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Culfa şəhəri, "Təbriz" küçəsində yerləşən mənzilin 31.01.2014-cü il tarixli, 1214000625 qeydiyyat nömrəli, MH seriyalı-0034501 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 124